ADB News Release
AZERBAIJAN RESIDENT MISSION, ASIAN DEVELOPMENT BANK

96 Nizami Street, 4th Floor
Landmark Building
Baku AZ1000, Azerbaijan
Tel + 994 12 496 58 00

# AİB-nın Qrantı Azərbaycanda Bərpa Olunan Enerji Layihələrinə Dəstək Olacaq

Bakı, Azərbaycan (26 May 2006) – Asiya İnkişaf Bankı (AİB) və Azərbaycan Hökümət bugün ölkədə bərpa olunan enerjinin istehsalı üçün potensialın ve müxtəlif yolların araşdırılması üçün 900.000 ABŞ dolları məbləğində texniki yardım layihəsi üzrə grant müqaviləsi imzalamışlar.

Finlandiya Hökümət tərəfindən dəstəklənən bu layihə bərpa olunan enerji istehsalına təkan vermək üçün iş planının hazırlanması və ən uyğun bərpa olunan enerji növləri üçün pilot layihələri nəzərdə tutur.

AİB-nin Azərbaycandakı Ölkə üzrə İqtisadçısı Filip Çanqın dediyinə görə: «İstehsala təkan verdiyi, gəlirləri artırdığı və yeni iş yerlərinin yaranmasına səbəb olduğu üçün bərpa olunan enerji mənbələri Azərbaycanda yoxsulluğun azaldılması sahəsində xüsusi əhəmiyyətə malikdir».

Enerji sektoru Azərbaycan iqtisadiyyatında əsas rol oynayır və 2004-cü ildə ÜDM-un təxminən üçdə bir hissəsini təşkil etmişdir. Özəl sektorun neft və qaz istehsalı və ixracı sahələrində iştirakında uğurlu şəkild cəlb edilməsinə baxmayaraq, ölkənin enerji sektoru köhnələn infrastrukturun yeniləşməsinə və enerji təminatının təkmilləşdirilməsinə investisiyalara ehtiyacı var. Etibarsız elektrik təhcizatı iqtisadi inkişafa meneəçilik törətmək və iş yerləri üçün imkanları məhdudlaşdırmaqla yanaşı, ölkənin bəzi regionlarında adi enerji ehtiyacları güclə garşılanır.

Cənab Çənq əlavə edir ki: «Əsasən kiçik hidroenerji və külək enerjisi kimi alternativ və bərpa olunan enerji mənbələrinin istifadəsi enerji qıtlığını aradan qaldırmaq üçün reqabətə davamlı və ətraf mühitə zərərsiz yoldur».

Layihənin ümumi dəyərinin 200.000 ABŞ dollarını Finlandiya Hökümət, 500.000 ABŞ dollarını isə AİB ödəyir. Hökümət isə bu layihəyə 200.000 ABŞ dolları mıqdarında dəstək olacaqdır. Sənaye və Energetika Nazirliyi 10 ay müddətində həyata keçiriləcək layihəni icra edən qurumdur.

AİB-nin Azərbaycanda həyata keçirdiyi layihə və proqramlar haqda məlumat almaq üçün http://www.adb.org/azrm saytına baxa bilərsiniz. Texniki yardım layihəsini göstərilən ünvandan yükləyə bilərsiniz http://www.adb.org/Documents/TARs/AZE/39622-AZE-TAR.pdf.

*****

Manilada yerləşən AİB Mərkəzi Asiya və Sakit okean ölkələrində əhalinin yoxsul təbəqələrinin maraqlarına yönələn sabit iqtisadi yüksəliş, sosial inkişaf və zəruri idarəetmə vasitələri ilə yoxsulluğun azaldılmasına yönəldilmişdir. 1966- cı ildə yaradılmış bu təşkilat 47-si bu regiondan olan 65 üzvdən ibarətdir. 2005-ci ildə AİB 6.95 milyard dəyərində kredit və qrant layihələrini və 198.8 milyon dəyərində texniki yardım təsdiq etmişdir.